*Azərbaycan Turizm və Menecment Universiteti*

*Azerbaijan Tourism and Management University*

# Turizm

**və**

# qonaqpərvərlik tədqiqatları

**Beynəlxalq jurnal**

# Tourism

**and**

# hospitality studies

**International journal**

***Turizm və qonaqpərvərlik tədqiqatları.***
«IN-2017» MMC, Bakı, 2017, səh. 232
ISSN 2409-6032

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.12.2011-ci il tarixli 3507 № ilə qeydiyyata alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə **İqtisad elmləri, Tarix elmləri** və **Sənətşünaslıq üzrə** (6219.01-*Kulturologiya və onun ümumi məslələri;* 6220.01-*Muzeyşünaslıq*) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısı"na daxil edilmişdi.

***Tourism and hospitality studies.***
«IN-2017» MMC, Baku, 2017, pp.232
ISSN 2409-6032
The journal was registered at the Ministry of Justice of the Republic of Azerbaijan by Minutes № 3507 dated 05.12.2011 and included in the list of periodical scientific publications where the main results of the theses on **Economic Sciences, History Sciences** and **Cultural Studies** (621901-*Cultural Studies and its general issues*; 622001-*Museum Study*) are recommended to be published by the decision dated May 16, 2014 (Minutes № 07-R) of the Board of Supreme Attestation Commission attached th the President of Azerbaijan.

© Azərbaycan Turizm və Menecment Universiteti, 2017

# Turizm və qonaqpərvərlik tədqiqatları
# Tourism and hospitality studies

***Beynəlxalq jurnal/International journal***

***İl 6, Say 3, 2017/ Volume 6, Number 3, 2017   ISSN 2409-6032***



| **Redaksiya Şurası** | **Editorial board** |
|---|---|
| Əbülfəz Qarayev<br>*Redaksiya şurasının sədri* | Abulfas Garayev<br>*Chairman of Editorial board* |
| İlham Mədətov<br>*Baş redaktor* | Ilham Madatov<br>*Editor in Chief* |
| Eldar Aslanov<br>*Baş redaktorun müavini* | Eldar Aslanov<br>*Deputy Editor-in-Chief* |
| Qahirə Məmmədova<br>*Məsul katib* | Gahira Mammadova<br>*Executive secretary* |
| **Redaksiya Şurasının üzvləri** | **Editorial board members** |
| Sevda Məmmədəliyeva | Sevda Mammadaliyeva |
| Cəfər Cəfərov | Jafar Jafarov |
| Yaşar Əliyev | Yashar Aliyev |
| İranə Əliyeva | Irana Aliyeva |
| Rəhman Səfərov | Rahman Safarov |
| Nəsir Nəsirli | Nasir Nasirli |
| Bahadur Bilalov | Bahadur Bilalov |
| Həbibə Sultanova | Habiba Sultanova |
| Flora Ələsgərova | Flora Alasgarova |
| Xaləddin İbrahimli | Khaladdin Ibrahimli |
| Müzəffər Ağakərimov | Muzaffar Agakarimov |
| Novruz Quliyev | Novruz Guliyev |
| Vüqar Nəzərov | Vugar Nazarov |
| (Azərbaycan) | (Azerbaijan) |
| Cəfər Cəfəri | Jafar Jafari |
| (ABŞ) | (USA) |
| Eva Verner | Eva Werner |
| İrfan Arikan | Irfan Arikan |
| (Avstriya) | (Austria) |
| Bülent Himmetoğlu | Bulent Himmetoglu |
| Nurnisa Ese | Nurnisa Ese |
| Hilmi Yüksel | Hilmi Yuksel |
| Fatma Çakır | Fatma Chakir |
| (Türkiyə) | (Turkey) |
| Uve Veithöner | Uwe Weithöner |
| (Almaniya) | (Germany) |
| Vladimir Şalayev | Vladimir Shalayev |
| (Rusiya) | (Russia) |

# MÜNDƏRİCAT

Anar EMİNOV. Avtandil BAYRAMOV. Aysel MƏMMƏDLİ.
Sosial sahələrə qoyulan investisiya proyektlərinin qiymətləndirmə formaları və üsulları (səhiyyə sektorunun timsalında)............. 8

Vüqar BAYRAMOV. Zaur KADIROV.
Azərbaycanda dəniz turizmi şəklində turizm sektorunun diversifikasiyası .................................................. 30

Nizami ƏYYUBOV. Məmməd SADIQOV.
Ovçuluq və balıqçılıq turizminin inkişaf etdirilməsinin zəruriliyi haqqında ................................................................ 46

İlahə ƏLİYEVA.
Turizm sahəsində kadr hazırlığının müasir vəziyyəti və inkişaf tendensiyası ............................................ 53

Dilbər QULİYEVA. Ziyad QULİYEV. Haluk TANRIVERDİ.
Siyasi münaqişələrin və müharibələrin yaşandığı bölgələrdə turistlərin təhlükəsizlik mədəniyyətinin təşkilində yerli idarəetmə strukturlarının rolu. ................................................ 61

İsrayıl İSGƏNDƏROV.
İctimai faydalı təşkilatlar barədə qısa icmal............................ 77

Flora ƏLƏSGƏROVA. Aliyə HACIBƏYLİNSKAYA.
Şirkətlərin korporativ idarəetmə sistemləri. ............................ 98

Elvin PAŞAYEV.
Müasir çağırışlar OPEK kontekstində: proqnozlar və innovasiyalar .................................................. 113

Təhminə ƏLİYEVA.
Müasir dövrdə maliyyə və pul sisteminin təhlili ..................... 126

*Tourism and hospitality studies*

Ruslan ƏLİYEV.
Azərbaycanın mənzil – kommunal təsərrüfatında islahatların aparılması modelləri ........ 135

Gülgəz MƏMMƏDOVA.
Ekoloji mədəniyyətin formalaşmasında ekoturizmin rolu ........ 150

Günel TEYMUROVA.
1828-1829-cu illərdə Osmanlı Rusiya müharibəsində Azərbaycanın rolu ........ 161

Zaur ƏLİYEV.
Cənubi Qafqaz Rusiya Federasiyasının geosiyasi maraqlarında ........ 176

Səbinə NEMƏTZADƏ.
Orta əsrlər İslam dünyasında astronomiya ........ 201

Esmira ABDULLAYEVA.
Aqrar sahibkarlığın inkişafı və islahatlar ........ 210

Elnurə XUDAVERDİYEVA.
Kənd təsərrüfatında innovativ biznesin inkişafı: problemlər və perspektivlər ........ 223

## CONTENTS

Anar EMINOV. Avtandil BAYRAMOV. Aysel MAMMADLI.
Evaluation forms and methods of investment
projects in social fields (in case of health sector) ................... 8

Vugar BAYRAMOV. Zaur KADIROV.
Diversification of the tourism sector in the form of
maritime tourism in Azerbaijan ............................................ 30

Nizami AYYUBOV. Mammad SADIGOV.
About the necessity of developing hunting and fishery
tourism........................................................................... 46

Ilaha ALIYEVA.
Current situation and development
trends of the personnel training in tourism sphere.................. 53

Dilbar GULIYEVA. Ziyad GULIYEV. Haluk TANRIVERDI.
Role of the Organizational Structures in the Organization of
Tourist Security in the Region of Political Conflicts and
war................................................................................... 61

Israyıl ISGANDAROV.
Basic overview of Public Benefit Organizations..................... 77

Flora ALASGAROVA. Aliya HAJIBAYLINSKAYA.
Systems of corporative management of companies................. 98

Elvin PASHAYEV.
Modern challenges in the context of OPEC: forecast and
innovation ........................................................................ 113

Tahmina ALIYEVA.
Currently analysis of the financial and monetary system ........ 126

Ruslan ALIYEV.
Transformation models of housing sector in Azerbaijan ......... 135

Gulgaz MAMMADOVA.
The role of ecotourism in the formation of ecological
culture ........................................................................ 150

Gunel TEYMUROVA.
The role of Azerbaijan in the Russian-Ottoman War
between the 1828 - 1829 years ............................................ 161

Zaur ALIYEV.
South Caucasus in the geopolitical interest of the Russian
Federation ..................................................................... 176

Sabina NEMATZADA.
Astronomy in the medieval Islamic world .............................. 201

Esmira ABDULLAYEVA.
Development and reform of agrarian enterprises .................... 210

Elnura KHUDAVERDIYEVA.
Innovative business development in agriculture: problems
and prospects ................................................................. 223

**UOT-9:91:910**

**Dilbər QULİYEVA**
İstanbul Universiteti
dilberemrayeva@yahoo.com

**Ziyad QULİYEV.**
İstanbul Universiteti
ziyad86@mail.ru

**Haluk TANRIVERDI**
İstanbul Universiteti
Turizmin İdarəedilməsi bölümü
haluktanriverdi34@gmail.com

# Siyasi münaqişələrin və müharibələrin yaşandığı bölgələrdə turistlərin təhlükəsizlik mədəniyyətinin təşkilində yerli idarəetmə strukturlarının rolu

# Role of the Organizational Structures in the Organization of Tourist Security in the Region of Political Conflicts and Conflicts Wars

# Роль местных структур управления в организации культуры безопасности туристов в регионах с наличием политических конфликтов и войн

**Xülasə:** Naxçıvan turizm məkanlarında təhlükəsizlik mədəniyyətinin analizi bu tədqiqatın əsas məqsədidir. Təhlükəsizlik mədəniyyəti ilə turizmdə yeni mərhələ açıldığını qeyd etmək lazımdır. Tədqiqat əsasən qədim tarixi memarlıq abidələrinə sahib olan Naxçıvan Muxtar Respublikasının turistik məkan olaraq təhlükəsizlik mədəniyyətindəki yerini analiz edir. Tədqiqatda təhlükəsizlik mədəniyyəti nəzəriyyəsi araşdırılır.

**Açar Sözlər:** *Naxçıvan, Turist, Təhlükəsizlik Mədəniyyəti.*

**Abstract**: The analysis of safety culture in Nakhchivan touristic regions is purpose of this research. It is important to make a note that tourism cross a new stage with safety culture. On the whole research was analyzed as a tourist place of Nakhchivan Autonomous Republic which has ancient historical architectural monuments in safety culture. The theory of safety culture is analysed in the research.

**Key words**: *Nakhchivan, Tourist, Safety Culture.*

**Резюме:** Основной целью данного исследования является анализ культуры безопасности в туристических регионах Нахчывана. Следует отметить, что с появлением культуры безопасности начался новый период в туризме. Для желающих комфортного путешествия туристов, которые ценят свое свободное время, крайне важно находиться в безопасной территории. В основном это исследование анализирует место Нахчыванской Автономной Республики, обладающей древними историческими памятниками архитектуры, в культуре безопасности в качестве туристического региона. В данной работе исследуется теория культуры безопасности.

**Ключевые слова:** *Нахчыван, туризм, культура безопасности,*

## GİRİŞ

Dünyada birçox ölkələr qonşuları və ya ölkə daxilində etnik qruplarla münaqişə içərisindədir. Bu münaqişələr turistlərə səyahət edəcəkləri məkanları seçdiyi ərəfədə ciddi mənada təsir edən faktorlardandır. Naxçıvan Muxtar Respublikası geostrateji mövqeyi baxımından ciddi mənada təhlükəsizlik təminatı tələb edən bölgələrdəndir. Belə ki, SSRİ-nin süqutundan sonra ölkə Ermənistanla başlayan müharibə zamanla hər iki tərəf arasında "Atəşkəs" elan edilməsinə baxmayaraq davam edən bəzi atışmalar müha-

ribənin hər dəqiqə başlaması təhlükəsini yaratdı. Bu təhlükə hələ də davam etməkdədir. Bu mənada turistlərin getmək istədiyi yerlər məhdud və risklidir. Bu da bölgənin turizm potensialından geniş şəkildə istifadə edə bilməməyinə səbəb olur. Tətqiqatımız savaş ehtimalının yaşandığı bölgədəki turizm müəssisə və abidələrini ziyarət edən turistlərin təhlükəsizliyinin təminatı və yaradılmalı olan təhlükəsizlik mədəniyyətinin analizidir. (Mahmudlu ve Əhmədov.2010)Təhlükəsizlik mədəniyyətinin turizm sahəsində təmin edilməsi bir regionun daha çox turist cəlbediciliyinə təsir edən əhəmiyyətli faktorlardan biri və ən vacibidir. Təhlükəsizlik mədəniyyəti anlayışı beynəlxalq standartlara uyğun olaraq yerli xalqın mənafeyini qoruyaraq iqtisadi inkişafına kömək etmək və həmin regionların turistik obyekt olaraq daha da yaxşılaşdırılmasına səbəb olan bir termindir. Belə ki, "Maslov ehtiyaclar piramidasindakı "*fizioloji*" ehtiyacdan sonrakı məqama təhlükəsizlik ehtiyacı qoyulur. Burada "*təhlükəsizlik ehtiyacını*" bir fərdin varoluşunu şərtləndirən arxetiplərdən biri və əsas meyarı kimi görmək mümkündür. (Huitt, Wiliam. 2004)

"Post-Fordist" istehsalat münasibətlərinin yaranmasından sonra "boş zaman" anlayışı daha çox gündəlik həyatda özünə yer tutdu. (Ömer, 2002) Xüsusilə də kapitalizm bu "boş zamanı" xəyali meta kimi satılabilən məhsula çevirdikdən sonra bu sahədə ciddi mənada yeni münasibətlər yaranmağa başladı. Turizm isə iş saatından geridə qalan vaxtı, tətil günlərini kapitalist sistemin çıxarları istiqamətində qiymətləndirmək üçün yeni sahələrdən biri kimi dünyada sürətlə yayılmağa başladı. Şübhəsiz, bu mənada bilmədiyi və tanımadığı yerlərə gedən, fərqli istirahət mərkəzlərində olan və ya müxtəlif alternativ turistik fəaliyyətdə iştirak edən fərdlərin təhlükəsizlik məsələsini daha da əhəmiyyətli bir məqama yüksəltdi. Bu mənada turizm sənayesindəki "*Təhlükəsizlik Mədəniyyəti*" anlayışını analiz edərkən məsələnin iki fərqli məqamına toxunmaq ehtiyacı yaranır. Bunlardan birincisi "**fərdi**", ikinci isə "**global**" təhlükəsizlikdir. Fərdi olaraq turistin turistik

müəssisələrdə hər hansı bir şəkildə təhdid edilməməyi, ona qarşı kobudluq (xidmət sahələrində), əxlaqına və şəxsiyyətinə qarşı təzyiqlər (Bu məqam qaşılıqlıdır, çünki turistin də eyni şəkildə səyahət etdiyi məkanda xidmət göstərənlərə və ya gəzdiyi bölgədəki yerli xalqa qarşı kobud rəftarı yolverilməzdir.) olmamalıdır. Təhlükəsizliyin fərdi məqamı qarşılıqlı mədəniyyətə və ikili etik münasibətə dayanır. Ancaq məsələnin ikinci tərəfi isə global səviyyədə həll edilir. Bu mənada dövlətlərin turistləri ola biləcək müharibədən, siyasi basqılardan, təbii fəlakətlərdən qorumağı əsas məqamdır. Çünki turizm sənayesinin daha da inkişafı üçün dövlətin birinci şəkildə siyasi, mədəni, iqtisadi mühiti təmin etməsi əsas şərtdir. (Huitt, Wiliam; 2004).

## 1.“Mədəniyyət” termini nədir?

Təhlükəsizlik mədəniyyətini turizm və turistin ***“boş zamanı”*** qiymətləndirmə fəaliyyəti konteksində analizinə keçməmişdən öncə “**mədəniyyət**” sözünü bir termin kimi qiymətləndirmək daha doğru olardı. Belə ki, mədəniyyət *“insan qruplarına məxsus olan və onlar tərəfindən yaradılan, nəsildən nəsilə ötürülərək ifadə edilən, duyğuların, düşüncələrinin və darvanışların formasıdır”* (Kroeber və Kluckhohn, 1952).

“Mədəniyyət” termininə dair antik yunan ədəbiyyatından postmodern nəzəriyyələrə qədər davam edən müzakirəli tədqiqatlar mövcuddur. Ancaq məsələyə dair fundamental analizlər Kroeber və Kluckohn (1952) tərəfindən aparılmışdır. Əslində bir növ fəaliyyət prosesi (*cultivation*) olaraq ifadə edilən və heyvandarlıq (buna nümunə olaraq çobanlığı, yaylaq və ya qışlaqlar arasındakı həyat tərzini, qəssablığı), zehni fəaliyyət (*active cultivation*) kimi fərqli məqamlarda özünə yer tapan qavrayışdır. Eyni zamanda *“bütün bir həyat tərzi”* kimi də qiymətləndirən tətqiqatlar da mövcuddur. Raymond Villiams “Mədəniyyət” (Kültür) (1993;8) əsərində (burada mədəniyyət daha çox sosyalogiya elminin nəzəri bazası əsasında tədqiq edilir və bir növ “***interdisipliner***”, fənlərarası əlaqənin yaratdığı ortak “**nötr**”

qavrayış kimi analiz edilir) terminin iki əsas məna çalarına toxunur.

*"...burada iki əsas məqam diqqəti cəlb edir. A) Kütləvi fəaliyyətlərin, ancaq orjinallıq ehtiva edən (dil, sənət üslubları, intelektual fəaliyyət formaları kimi) bütün mədəni fəaliyyət məqamlarınınn üstündə dayanan bir həyat tərzinin ehtiva edən (öyrədən ruh) olaraq ifadə edilir. B) İkinci bir tərəf isə əvvəlcədən keçmiş nəsillər tərəfindən yaradılmış, bilvasitə və ya bilavasitə nəsillər arasında ötürülmüş olan "bütöv bir ictimai şərait" kimi də ifadə edilməkdədir. Adətən bu iki yanaşma a) idealist və b)materialist bir baxış bucağını ifadə edir."*

## 1.1. Təhlükəsizlik Mədəniyyəti Nədir?

Təhlükəsizlik mədəniyyətinin turizm sektorundakı mahiyyətinə və əhəmiyyətinə dair mülahizələrə yer verməmişdən öncə bu qavrayışın ilkin çıxış nöqtəsinə nəzər yetirməyimiz daha yaxşı olardı. Belə ki, "*təhlükəsizlik mədəniyyəti*" terminini ilk dəfə olaraq 1986-cı ildə baş vermiş Çernobıl AES-də güclü nüvə partlayışı hadisəsinin nəticəsi olaraq hazırlanan bir raporda 1989-cu ildə istifadə edilmişdir. Bu təhlükəsizlik mədəniyyəti terminini Beynəlxalq Atom Enerjisi Agentliyi istifadə etmişdir (Dursun, 2012).

Təhlükəsizlik anlayışının əslində bir çox fərqli aspektləri olduğu üçün burada turizm üçün ehtiva etdiyi mənaya daha çox toxunmaqda fayda vardır. Adətən təhlükəsizlik mədəniyyəti hər hansı bir qurumun sağlıq və güvənlik təminatı və bu anlayışlara yanaşma tərzi ilə fərdi və qrup dəyərlərinin, vərdişlərinin, yanaşma tərzlərinin və davranış qaydalarının bir bütünü olaraq qiymətləndirilməkdədir (Tütüncü, Kiremitçi və Çalışkan 2011).

Adətən turizm sənayesində daha çox satılabilən məhsul kimi xidmət və dəyərlər olduğu üçün hər iki tərəfin də təhlükəsizlik mədəniyyətinə riayət etməyi mühim rol oynayır. Belə ki, turizm qurumlarının və ya müəssisələrinin (muzey, restoran, otel, sərgi və s.) təhükəsiz xidmət göstərməyi üçün ilk öncə həmin qurumlarda

işləyən fərdlərin bu mədəniyyətə riayyət etməyi əsas şərtdir. Eyni zamanda onların da təhlükəsizliyi təmin edilməlidir (Ju-feng, 2005).

Müəssisələrdə işləyən şəxslərin də sağlam xidməti üçün təmin edilməli bəzi məqamlar adətən bu kateqoriyalar altında müəyyən edilir. İş sağlığı və həmin işin gətirdiyi müəyyən xəstəliklərlə bağlı iş qəzası, fövqəladə bir vəziyyətin yaranması nəticəsində insana və ya qurum fəaliyyətinə mənfi təzir edən hadisə də ifadə edilə bilər. Xüsusi ilə turizm sektorunda iş qəzası və işin yaratdığı xəstəliklər özünü fərqli bir istiqamətdə biruzə verməkdədir. Dünyada turizm sektorunun sürətlə inkişaf etməsi, qurumlar və müəssisələr arasındakı rəqabət mühiti bu sektorda fərqli risk faktorlarının yaranmağına səbəb olmaktadır. Bu sahədə olan təhlükəli iş şəraiti və buna təhlükəsizlik qaydalarına riayyət etməyən şəxslərin müxtəlif dərəcəli və formalı xəslətiklərlə qarşılaşdığı görülməkdədir. Adətən turizm sahəsində fəaliyyət göstərən şəxslərdə əzələ və skilet sistemində müxtəlif xəstəliklər aşkarlanmaqdadır. Digər tərəfdən isə bu sektorda işləyən insanlarda daha çox rast gəlinən qəzalar yanmaq, yıxılmaq, kəsilmək, zəhərlənmə, boğulmaq, elektrik cərəyanın vurması və boğucu iş mühiti, turistin səyahət etdiyi bölgə ilə əlaqədar olan risklər (müharibələr, silahlı terror qruplaşmaları, cəngəlliklər, bataqlıqlar, xalqın yerli adət-ənənələri və s.) və buna bənzər fərqli məqamlar olar bilər. Turistik qurum və müəssisələrdə təhlükəsiz və sağlam bir iş mühitinin yaradılması üçün təhlükəsizlik mədəniyyətinə ciddi mənada riayət edilməlidir (Ufuk və Serçeoğlu, 2013)

## 1.1. 1. Turizm Sənayesində Təhlükəsizlik Mədəniyyəti və Kateqoriyalar

Turizm müəssisələrində və tarixi-memarlıq abidələrinin turistik məkan olaraq istifadə edilməsində bir sıra əsas faktor həlledici funksiyaya malikdir. Belə ki, dünyadakı bir çox alternativ və postmodern turist məkanları öz qonaqlarını qəbul edir. Bu qəbildən olan məkanların sırasına adətən yeraltı mağaralar, tarixi-

memarlıq abidələri, qədim tikililər və ya müxtəlif zəhərli heyvanların, həşəratların yaşadığı bölgələr, ya da ki müharibə təhlükəsi olan, terror faktı mövcud olan ərazilər daxildir. Bu mənada Naxçıvanın turizm məkanlarının təhlükəsizliyinin təminatı və burada təhlükəsizlik mədəniyyətinin arxetiplərinin formalaşdırılması da çox əhəmiyyətlidir. Ancaq əvvəlcə məhz təhlükəsizlik mədəniyyəti anlayışının əhatə dairəsinə daxil olan elementlərin kateqoriyalar içərisində sıralamaq fikrimizin konseptual şəkildə təqdimatı üçün əsas rola malik ola bilər: (Zhang və Zheng, 2001)

***Turist qrupları arasında əlaqə*** - Turizm müəssələrində qruplararası əlaqə və bu əlaqə zamanı təhlükəsizlik mədəniyyətinin formalaşdırılması çox mühim rola malikdir. Belə ki, qrup daxili etibarın və qrupun davamlı fəaliyyətinin təminatı üçün fərdlərin ciddi şəkildə cəhdi əhəmiyyətli funksiya daşımaqdadır.

***Turizm müəssisəsində idarə heyətinin təhlükəsizlik mədəniyyətinin formalaşmasında iştirakı***- Turizm müəssələrindəki idarə heyətinin təhlükəsizlik qayadalarına riayyət etməsi və hənin qaydalar əsasında öz fəaliyyətini qurması ciddi faktorlardan biridir.

***İşçilərin təhlükəsizlik mədəniyyətini bərpa etmək və davamlılığını təmin etmək üçün bu prosesdə iştirakının təşkili*** - Turizm müəssisələrində təhlükəsizlik mədəniyyətini formalaşdırmaq üçün əsasən işçiləri həmin təhlüksizlik qaydalarını bərpa edən, yaradan, davamlılığını təmin edən səlahiyyətli şəxs kimi müəyyənləşdirmək lazımdır. Bu halda onların müəssisəsə daxilində təhlükəsizliyi başqa turistlərdən tələb etməsi faktı mümkün ola bilər.

***Mükafatlandırma sistemləri*** - Turizm müəssələrində təhlükəsizlik mədəniyyəti qaydalarına riayyət edənlərin mükafatlandırılması, həmin qaydaları pozanların cəzalandırılması müəssisə daxilində təhlükəsizlik mədəniyyətinin inkişafını təmin edən faktorlardan biri kimi hesab edilə bilər. Bu mənada xüsusi ilə onu da qeyd edək ki, mükafatlandırılma sistemi işçilərin həmin

müəsissə daxilindəki təhlükəsizlik mədəniyyətinə daha ciddi bir perspektivdən yanaşmasını təmin edən faktorlardan biridir.

***Hesabat kimi təqdim etmə sistemi*** - Turizm müəssisələrində baş verən hadisələr barədə zamanında məlumatların hazırlanması və yaranmış problemlərin həlli, təhlükəsizliyin təminatı və təhlükəsizlik mədəniyyətini təhdid edən faktorların ortadan qaldırılması sahəsində görülən işlər ciddi nəzarət tələb edir. Bu mənada raporlama sistemi mühim əhəmiyyətə malikdir. (Tanrıverdi, 2016)

### *1.1. Turizm Sənayesində Təhlükəsizliyə dair Yanaşmaların Təşkili Modeli.*

Tətqiqatımızda əsas diqqət mərkəzində saxlamaq istədiyimz model kimi "Təhlükəsizliyə dair Yanaşmaların Təşkili Modeli"dir. Bu model Naxçıvan Muxtar Respublikasında Turizm sənayesinin ümumi vəziyyətini analiz etmək və nəzəri çərçivəni formalaşdırmaq üçün olduqca geniş imkanlara malikdir. Naxçıvan Muxtar Respublikasının inkişaf edən və dəyişən kapitalist münasibətlər məqamında turizm potensialının müəyyən məqamda geostrateji mövqeyi və təbii yerləşmə məkanı yönündən zəif inkişafını şərtləndirən bir çox faktor vardır. Ancaq modern Naxçıvanın turizm imkanlarını müxtəlif istiqamətdə qiymətləndirə bilərik. Bu model məhz akademik bir perspektivdən yanaşmaq imkanı verkdədir.

"Təhlükəsizliyə dair Yanaşmaların Təşkili Modeli" özündə dörd əhəmiyyətli ünsürdən, elementdən ibarətdir. (Guldenmund. 2000)

***Təchizat*** - Burada əsas təhlükəsizlik təminatının təşkili üçün ehtiyac olan təchizatdan və fiziki təhlükələr məsələnin mərkəzində dayanır. Məhz "*təchizat*" üçün əvvəlcə turizm sənayesindəki müəyyən edilmiş turist marşrutlarını analiz temək və risk faktoru ehtiva edən marşrutların hansı olduğunu diqqətə almaq lazımdır. Əslində aşağıdakı turist marşrutlarının böyük bir qisminin risk faktoru daşıdığını məhz bölgənin ərazisinin xeyli kiçik olması və böyük bir qisminin Ermənistanla sərhəd qonşusu olmasından

qaynaqlanır. Burada qarşı tərəfdən atəşkəsin hər an pozulması halları qeydə alınır.

Əldə etdiyimiz müəlumat əsasında məhz Naxçıvan Muxtar Respublikasının Turizm üçün əlevrişli marşrutlarını bu şəkildə sadalaya bilərik. Naxçıvan-Gəmiqaya, Naxçıvan-Əlincə Qalası, Naxçıvan- Ashabi Kəf, Naxçıvan- Ordubad, Naxçıvan- Qarabağlar (Web-2.Səhifə İstifadə Tarixi\12.06.2017 )

Təchizat baxımından əslində turistik marşrutların mövcudluğu faktına baxmayaraq tədqiqatımızın əsas hipotezini təşkil edən "*təchizata*" dair təhlükə faktoruna dair əldə etdiyimiz məlumatlar bu istiqamətdədir. Naxçıvan Muxtar Respublikası ordusu sərhəd bölgəsində ciddi şəkildə müdafiə mövqeyində dayansa da, Ermənistan tərəfindən hər gün ərzində 10-15 dəfə atəşkəs rejimi pozulur. Bu isə öz növbəsində iki ölkə arasında imzalanmış "Bişkek Müqaviləsinin" (12 may 1994) şərtlərinin pozulması deməkdir. Şübhəsiz bu bölgəyə səyahət etmək istəyən turistlər üçün risk faktoru daşıyır. (Ramazanov, 2016)

***Hüquqi Baza-*** Turistlərin öz yaşadığı ərazidən tanımadığı, hər hansı bir şəkildə əlaqəsinin olmadığı bölgələrə səfəri əslində özündə yarana biləcək hər hansı bir təhlükədən xəbər verir. Turistlərin təhlükəsizliyinin təmin edilməsi üçün mütləq şəkildə dövlətlər öz qanunlarını bu istiqamətdə də təşkil etməlidirlər.

Bu modelə görə hüquqi baza qismi özündə qaydalara, proseslər, qanunlar, idarə etmə qaydaları və siyasəti kimi əhəmiyyətli kategoriyaları birləşdirir. Bu mənada turistlərin hüquqları, azadlığı və təhlükəsizliyi Azərbaycan Respublikası Konstitusiyası və Naxçıvan Muxtar Respublikası Konsistusiyasında təsdiqlənmiş əsaslara görə təmin edilir. (web-2. Səhifənin açılma tarixi. 29.08.2017) Eyni zamanda Naxçıvan yerli idarəetmə strukturları da məhz bölgənin turistik məkan olması baxımından təhlükəsizliyinin təminatına və risklərin minimum həddə endirilməsinə ciddi nəzarət etməkdədir. Xüsusilə, Naxçıvan Muxtar Respublikası Müdafiə Nazirliyi və Türkiyə Cumhuriyyəti Müdafiə Nazirliyi

arasındakı iki tərəfli razılaşmaya görə burada təhlükəsizlik tədbirləri daha əhatəli və ciddi şəkildə həyata keçirilir (Şimşek, 2010).

***İnsan Resursları-*** Analiz etdiyimiz modelin bu kateqoriyasında işçilər, nəzarətilər, idarə edici, təhlükəsizlik nərəfləri, mütəxəsislər, iqtidar sistemi və Qeyri Hökümət Təşkilatları kimi bəzi əhəmiyyətli qrupların fəaliyyətindən ibarət olmaqdadır. Turizm sektoru üçün lazımlı şəxsi heyyətin olması və şəraitin, mühitin təşkili bu sektorun daha da inkişaf etməsi üçün şərait yaratmaqdadır. Tarixi, memarlıq abidələrinin panoptik (Foucault, 2008) nəzarəti və şəhər içərisindəki təhlükəsizlik kameraları, dövlətin var olan təhlükəyə qarşı göstərdiyi ciddi münasibət əhəmiyyətli faktorlardandır.

***Risklər-*** Turizm sənayesindəki təhlükəsizlik mədəniyyətində əhəmiyyətli ünsürlərdən biri də müəssisə içərisində işləyənlərin və ya turistlərin arasındaki münasibətlərdən yaranan münaqişə, müəssisənin daxilindəki iş şəraitinin daşıdığı risklərlə birlikdə bir də ümumi ölkənin daşıdığı risklər mövcuddur. Bu mənada Naxçıvan Muxtar Respublikasının turizm sektoru üçün risk faktoru kimi Ermənistan ilə davam edən müharibə və qeyri-müəyyən fasilələrlə sərhəd bölgələrdə atışmaların olmasıdır. Məsələnin daha çox risk ehtiva edən qismi isə bu atışmanın nə vaxt başlayıb nə vaxt bitəcəyinin müəyyən etməyin qeyri-mümkün olmasıdır (Akar, 2017).

Bu model əsasında Naxçıvan Muxatr Respublikasının turizm sənayesinə nəzər yetirdikdə bölgədə alternativ (Ashabi-Kəf mağarası və b.), tarixi (Mömünə Xatun Türbəsi və b.), səhiyyə (Duzdağ oteli) kimi sahələrdə turizm baxımından geniş imkanların olduğunu görə bilərik. Eyni zamanda Azərbaycan Respublikasının bölgədəki güclü iqtisadiyyatı olan bir dövlət olması, “Qars” müqaviləsinə əsasən Türkiyənin siyasi və strateji dəstəyinin və Naxçıvan MuxtarRespublikası hökümətinin və ordusunun yaratdığı imkanlar məhz bu risk faktorunu müəyyən qədər azaltmaqda əhəmiyyətli rola malikdir. Eyni zamanda onu da qeyd edək ki,

Naxçıvan Muxtar Respublikası iş imkanlarının müəyyən qədər zəif olduğu bir bölgədir. Məhz turizm sənayesinin inkişafı nəticəsində burada yeni iş yerlərinin açılması və yerli əhalinin daha rahat təminatı üçün şərait yarada bilər. Sonda onu da qeyd edək ki, məhz müharibə meyarının medya vasitəsi ilə geniş yayılması Naxçıvan Muxtar respublikasının turizm sənayesinin inkişafına risk təşkil edir (Muradov, 2003).

## *2.* Metadologiya və Tətqiqatın Nəticələri

Naxçıvan Muxtar Respublikasının tarixi-memarlıq abdiələrindəki təhlükəsizlik mədəniyyətinin təşkili və həmin abidələrin turizm müəssisəsi kimi faəliyyəti üçün təhlükəsizliyin təminatı mühüm əhəmiyyətə malikdir. Bu mənada Naxçıvan Muxtar Respublikasının təhlükəsizlik mədəniyyətinin təminatı ilə bağlı əldə edilmiş qaynaqların müqayisəli analizi tədqiqatımızın empirik qismini formalaşdırır. Burada əsasən Naxçıvan Muxtar Respublikasının turizm potensialının və imkanlarını təhdid edən faktorların konseptual çərçivəsi müəyyən edildi. Yuxarıdakı iddia etdiyimiz hipotezə dair nəticələri aşağıdakı kimi təsnif edə bilərik.

Belə ki, birinci məqamda Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Xidmətininin fəaliyyəti, panoptik bir prizmadan təhlükəsizlik mədəniyyətini formalaşdıran və ümumi təhlükəsizliyi təmin edən şəhər kameralarının quraşdırılması, tarixi-memarlıq abidələrinin xüsusi effektlərlə işıqlandırılması və bərpası, şəhərin ciddi şəkildə abadlaşdırılması bu baxımdan əsas həlledici faktor funksiyasını daşıyır (Əliyev, 2002).

Şübhəsiz, yuxarıda sadaladığımız faktorlara baxmayaraq, Naxçıvan Muxtar Respublikası istər tarixi-memarlıq, təbiət mənzərələri, təbii bulaqları, istərsə də dini-mifoloji elementləri ilə zəngin abidələri ilə qonşu ölkələrdəki turistlərin marağını cəlb etməkdədir. Bu mənada sərhəd ölkələrdən bu bölgəyə xeyli sayda turist səfərləri təşkil edilməkdədir. Əslində bu turistlər məhz yuxarıda qeyd etdiyimiz münaqişə meyarının mövcudluğu ərəfəsində müşahidə edilməkdədir.

Naxçıvan Muxtar Respublikasının turizm sektorunun Ermənistan tərəfindən risk ünsürünü təşkil etməsinə baxmayaraq, hökümət bu istiqamətdə ciddi addımlar atmışdır. Belə ki, bölgəni ziyarət edən turistlərin məhz müharibə təhlükəsini hiss etməməkləri üçün təşkil edilən psixoloji yöndə tədbirlər xeyli faydalıdır. Bunları daha geniş və əhatəli şəkildə analiz etmək, sıralamaq mümkündür. Ancaq aşağıda əcnəbi turistlərin bölgənin daşıdığı riski hiss etməməklərinə təsir edən faktorların başlıca olanlarını belə sadalaya bilərik. Dövlət Təhlükəsizlik Xidməti, Şəhər daixilində Quraşdırılmış Kameralarla Panoptik Nəzarət, Tarixi-Memarlıq Abidələrinin xüsusi effektlərlə işıqlandırılması, Yerli İdarəetmə Orqanlarının Təhlükəsizlik təminatı, Sərhəd Təhlükəsizliyi, Bölgədəki infrastrukturun modern memarlığa uyğun yenilənməsi və inşası, Tarixi abidələrin, turistik məkanların mühafizəsinin təşkili, Yerlı əhalinin öz mənzillərini əcnəbi turistlərə kirayə verməsi, Müxtəlif xarici nümayəndələrin və turizm şirkətlərinin olması (web-3. Səhifənin istifadə tarixi. 29.08.2017)

Yerli idarəetmə qurumlarının və söz sahiblərinin məhz bölgənin inkişafı üçün təşkil etdikləri təhlükəsizlik tədbirləri nəticəsində davam edən riskə baxmayaraq, turistlərin sayı xeyli sayda artmışdır. Bu mənada ölkəyə gələn turistlərin sayının müqayisəsi daha ciddi fakt rolunu oynayacaqdır. Xüsusilə cədvəlin birinci qismi məqalədə iddia etdiyimiz hipotezin təsdiqi mahiyyətindədir. Göründüyü kimi 2006 –cı ildə ölkəyə daxil olan turist sayı 93930 nəfər idisə, bu rəqəm 2016-cı ildə 403275 nəfər olmuşdur. Sadəcə elementar bir hesablama ilə aradakı fərqin 309345 nəfər olduğunu görmək mümkündür. Şübhəsiz bu əslində turizm sektorunda var olan risklərin və buna qarşı hazırlanan təhlükəsizlik tədbirlərinin əhəmiyyətinə dair tutarlı informasiya verməkdədir.

## NƏTİCƏ.

Araşdırmamızın nəticəsi olaraq Naxçıvan MR.-nın turizm sənayesinin inkişafı üçün geniş imkanların olduğunu anlamaq olar. Buradakı tarixi memarlıq abidələri, geostrateji mövqeyi və turizm imkanları baxımından bir çox yeni istiqamətdə nailiyyətlər əldə edilmişdir. Həmin imkanların istifadə edilməsi üçün mütləq şəkildə ciddi təqdimata istiqamətlənmiş layihələr hazılanmalıdır.

Naxçıvan Muxtar Respublikasının turizm imkanlarını belə təsnif edə bilərik, Naxçıvandakı memarlıq abidələri, Naxçıvandakı coğrafi-təbii landşaft və buna uyğun abidələr və Mifoloji hekayələri özündə ehtiva edən mağara, dini məkanlar...

Naxçıvan Muxtar Respublikasında Təhlükəsizlik Mədəniyyətini analiz etdiyimiz tədqiqatın nəticəsi olaraq qeyd edə bilərik ki, bölgənin geostrateji mövqeyi və Ermənistanla olan müharibə şəraitinə baxmayaraq, 2006-2016-cı illər arasındakı statistik rəqəmlərin fərqi məsələyə fərqli prizamdan baxmağımız üçün imkan yaradır. Belə ki, mövcud münaqişə öz həllini tapsa, məhz təhlükəsizliyin qlobal müstəvidə həllindən sonra bölgədə turizm sənayesi ciddi mənada inkişaf edə bilər. Naxçıvan Muxtar Respublikasına daxil olan turistlərin son on il ərsində kifayət qədər artmaqla bərabər, məsələnin ikinci tərəfi də maraqlı bir fakt kimi qarşımıza çıxmaqdadır. Ölkədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə “Turizm İnformasiya Mərkəzinin” yaradılması və burada müxtəlif istiqamətlərdə turların, turistik ehtiyacların təminatı, turistlərin məlumatlandırılması da müharibə şəraitində olan ölkədəki təhlükəsizlik mədəniyyətinin ciddi mənada təşkilinə dair müəyyən fikir əldə etməyimizə rəvac verir. (web-2/ Səhifənin istifadə tarixi. 29.08.2017)

Sonda onu da qeyd edək ki, Naxçıvan Muxtar Republikasındakı turizm sektorunda risklərin və qabaqlayıcı tədbirlərinin qarşılıqlı təsiri nəticəsində yerli əhalinin də bu boş zamanını qiymətləndirmək meyilləri xeyli sayda artmışdır. Yuxarıdakı tabloda Naxçıvandan kənarda turizm fəaliyyəti üçün gedən

şəxslərin statistik rəqəmləri xeyli məlumatvericidir. Aradakı on il ərzində yerli əhalinin turist kimi xaricə çıxması və boş zamanını turistik fəaliyyətlə dəyərləndirməsi ölkənin iqtsadi cəhətdən güclənməklə birlikdə, siyasi və mədəni aspektdən də dəyişdiyini göstərir. Bu da əslində digər bir tərəfdən təhlükəsizliyin təminatından qaynaqlanır, çünki turist kimi evini tərk edən yerli əhali hər hansı bir müharibə riskinə qarşı müdafiə olunduğu təminatına etibar etdiyini də göstərir.

Eyni zamanda onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının təhlükəsizlik mədəniyyətinin təşkilinə dair tədqiqatımızın nəticəsində bu zəmini yaradan bir sıra faktlar da daha dəqiq görülməkdədir. Bu mənada ciddi mənada ölkənin müdafiə və təhlükəsizlik məsələlərini qoruyan Dövlət Təhlükəsizlik Xidməti mövcuddur. Eyni zamanda modern texnalogiya vasitələrindən istifadə edilməsi və şəhər daxilində quraşdırılmış kameralarla panoptik nəzarətin təşkili, tarixi-memarlıq abidələrinin xüsusi effektlərlə işıqlandırılması, yerli idarəetmə orqanlarının təhlükəsizlik təminatı, sərhəd təhlükəsizliyi, bölgədəki infrastrukturun modern memarlığa uyğun yenilənməsi və inşası, tarixi abidələrin, turistik məkanların mühafizəsinin təşkili, yerli əhalinin öz mənzillərini əcnəbi turistlərə kirayə verməsi, müxtəlif xarici nümayəndələrin və turizm şirkətlərinin olması da məhz bölgənin turizm sənayesinin inkişafı üçün yaradılmış zəminin göstəricisidir. (web-3. Səhifənin istifadə tarixi. 29.08.2017)

**Ədəbiyyat**

1. Dursun, Salih, Nuran Bayram, And Serpil Aytaç. "Hasta Güvenliği Kültürü Üzerine Bir Uygulama." Sosyal Bilimler 8.1 (2010): 1-14.
2. Dursun, Salih. "İş Güvenliği Kültürü." Beta Yayınları, İstanbul (2012).
3. Huitt, Wiliam. "Maslow's Hierarchy Of Needs." Educational Psychology Interactive (2004)

4. ACILAR, Ali. "İşletmelerde Bilgi Güvenliği Ve Örgüt Kültürü." (2009)
5. Fleming, Ian A., Et Al. "Lifetime Success And Interactions Of Farm Salmon Invading A Native Population." Proceedings Of The Royal Society Of London B: Biological Sciences 267.1452 (2000): 1517-1523.
6. Berends, Hilde P., And Douglas W. Stephan. "Toward Copper (II) Hemocyanin Models. 2. Synthesis And Characterization Of Binuclear Copper (II) Complexes Of A Heptadentate Ligand." Inorganic Chemistry 26.5 (1987): 749-754.
7. Brown, S. A., & Coopers, P. W. (1999). Customer Relationship Management: A Strategic Imperative In The World Of E-Business. John Wiley & Sons, Inc..
8. Aras, Bulent, Sule Toktas, And Umit Kurt. "Araştırma Merkezlerinin Yükselişi, Türkiye'de Dış Politika Ve Ulusal Güvenlik Kültürü." (2012).
9. Eliyev, Veli. "Naxçıvan Muxtar Respublikasında Yeni Arxeoloji Tedqiqatlar." (2002).
10. Tanrıverdi H. "Turizm Hizmetlerinin Sağlığı Ve Yönetimi. Turizm Sağlığı Turizm Hizmetlerinin Sağlığı Sorunları Turizm Sağlığı Yönetimi., Değişim Yayınları, 2016"
11. Raymond Villiams "Kültür" İmge Yayinevi, 1993.
12. MAHMUDLU, Ceyhun, And Aqil ƏHMƏDOV. "" Beş Günlük Müharibə" Nin Cənubi Qafqaz Dövlətlərinə Təsiri." Journal Of Qafqaz University 29 (2010).
13. Huitt, Wiliam. "Maslow's Hierarchy Of Needs." Educational Psychology Interactive(2004).
14. Aytaç, Ömer. "Boş Zaman Üzerine Kuramsal Yaklaşimlar." Fırat Üniversitesi Sosyal Bilimer Dergisi Cilt 12 (2002): 231-260.
15. Kroeber, A. L., & Kluckhohn, C. (1952). Culture: A Critical Review Of Concepts And Definitions. Papers. Peabody Museum Of Archaeology & Ethnology, Harvard University.

16. Tütüncü, Özkan, İpek Kiremitçi, And Uğur Çalışkan. "Sağlık Turizmi, Güvenlik Ve Kalite." Anatolia: Turizm Araştırmaları Dergisi 22.1 (2011): 91-93.
17. Ju-Feng, X. U. (2005). Tourist Culture And Cultural Tourism: Some Issues In Theory And Practice [J]. Tourism Tribune, 4, 022.
18. Kaya, Ufuk, And Neslihan Serçeoğlu. "Duygu İşçilerinde İşe Yabancılaşma: Hizmet Sektöründe Bir Araştırma." Calisma Ve Toplum 36.1 (2013).
19. ZHANG, J. F., & ZHENG, X. M. (2001). An Analysis On The Occurring Patterns And Characteristics Of Tourism Security [J]. Journal Of Guilin Institute Of Tourism, 1, 009.
20. Thomson, K. L., Von Solms, R., & Louw, L. (2006). Cultivating An Organizational Information Security Culture. Computer Fraud & Security, 2006(10), 7-11.
21. Guldenmund F.W., The Nature Of Safety Culture: A Review Of Theory And Research, Safety Science, 34(3), 215-257, 2000.
22. Ramazanov, G. (2016). Dağlık Karabağ Sorunu Açısından Insan Haklarının Değerlendirilmesi (Doctoral Dissertation, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü).
23. Şimşek, O. (2010). Nahçivan'In Jeopolitik Ve Jeostratejik Önemi. Kafkas Üniversitesi Sosyal Bilimler Enstitü Dergisi, 1(6).
24. Akar, Esra. "Nahçıvan Özerk Cumhuriyeti." Tarih Ve İnsan Dergisi 1.2 (2017): 63-74.
25. http://www.Statistika.Nmr.Az/
26. http://turizm.Nakhchivan.Az/
27. http://turizm.Nakhchivan.Az/Index.Php/Template/Kaend-Evlaeri

## Məqalə yazma qaydaları

**1.**Məqalə müəllifinin adı, soyadı, iş yeri, e-mail adresi yuxarıda sağda **“B”** kursivlə yazılmalıdır.

**2.**Məqalənin adı mətnin ortasında üç dildə yazılmalıdır (məqalə ingilis, rus və ya türk dilində yazıldığı təqdirdə, onun adı Azərbaycan dilinə tərcümə edilməlidir).

**3.**Məqalənin üç dildə 50-100 kəlmədən ibarət xülasəsi (*abstract*) və 5-10 kəlmədən ibarət açar sözləri (*key words*) olmalıdır (məqalə ingilis, rus və ya türk dilində yazıldığı təqdirdə, onun xülasə və açar sözləri Azərbaycan dilinə tərcümə edilməlidir).

**4.**Məqalə “Times New Roman”-da, 12 şriftilə yazılmalıdır.

**5.**Mətn Microsoft Word proqramında (2003/2007) və A4 kağız formatına görə tərtib edilməli, kənar boşluqlar 2,5 x 2,5, alt və üst boşluqlar 1, 5 cm olmalıdır.

**6.**Paraqraflar: “o” cm aralıqda; sətirarası: “tək” olmalıdır

**7.**Ədəbiyyat siyahısının tərtibi qaydaları barədə nümunələr:

**a)** *kitab*: Abid Tahirli. Bütün türklərin tərcümanı. Bakı, 2011, s. 193

**b)** *arxiv*: Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), f. 3172, s.1, i. 2, v. 39

**c)** *qəzet*: “Azərbaycan” qəzeti, 1997, 9 iyun

**d)** *internet*: http://jurnal.meclis.gov.az/news.php?id=390, (27.11.2012)

**8.**Sitat gətirmə qaydaları: ədəbiyyat siyahısındakı ədəbiyyatın sıra sayı, əsərdən gətirilən sitatın səhifəsi göstərilməlidir. *Nümunə:* [5, s. 23]

**9.**Məqalə 5-12 səhifə həcmində olmalıdır

**10.** Məqalələr redaksiyanın aşağıdakı elektron ünvanına (th.journal@atmu.edu.az) 4 dildə (Azərbaycan, Türk, İngilis və Rus dillərində) təqdim edilir.

## Guidelines for articles

**1.**The author's name, surname, workplace, e-mail address should be written on right top in bold ***“B”***.

**2.**The title of the article should be written in the middle of the text in the three language (if the article is written in English, Russian, and Turkish its title should be translated into the Azerbaijan language)

**3.**The article should contain a summary of 50-100 words in English (*abstract*), and 5-10 *key words* in three languages (if the article is written in English, Russian, and Turkish its abstract and key words should be translated into the Azerbaijan language).

**4.**The article should be typed in "Times New Roman", 12 pt.

**5.**The text should be typed in Microsoft Word program (2003/2007) on standard A4 paper with 2.5 x 2.5 cm margins on right and left sides, 1, 5 cm margins on top and foot.

**6.**The paragraph space should be “0” cm and line space “1”

**7.**Guideline samples on reference entries:

**a)** *the book*: Abid Tahirli. The translator of all Turks. Baku, 2011, p. 193

**b)** *the archive:* The State Archives of the Republic of Azerbaijan (SAAR), f. 3172, s.1, i. 2, v. 39;

**c)** *newspapers:* “Azerbaijan” newspaper, 1997, June 9;

**d)** *internet:* http://jurnal.meclis.gov.az/news.php?id=390, (27.11.2012)

**8.** Guideline rules for quotation: the number of items in the list of literature and the page of quotation from the works should be indicated. *Example*: [5, p. 23]

**9.** The article should contain of 5-12 pages

**10.** The articles are presented the following e-mail address of the editorial (th.journal@atmu.edu.az) in 4 languages (Azerbaijan, Turkish, English and Russian)

**“İN-2017”MMC**

***Çapa imzalanmış 02.11.2017-ci il***
***Kağız formatı** 60x84 1/16, **çap vərəqi 29***
***Sifariş** 476, **sayı 200***